# Azərbaycanda hakimiyyət, ordu və xalq birliyi yenilməz qüvvəyə çevrilib



*Biz sübut etdik ki, böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra, bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Ötən ilin və bütövlükdə, son 30 ilin əsas yekunu Ermənistanın işğalı altında olan rayonlarımızın azad edilməsidir. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Milli Ordumuz 44 gün ərzində böyük zəfər salnaməsi yazdı. Xalqımız da dövlət başçısı və ordu ilə sıx birlik əzmi nümayiş etdirərək möhtəşəm qələbəyə tezliklə nail olunmasına töhfələrini əsirgəmədi.***

Əzəli Qarabağ torpaqlarımızın mənfur düşməndən biryolluq təmizlənməsi, nankor və kəmfürsət qonşularımızın layiqincə cəzalandırılması haqqın nazilsə də, üzülmədiyinin və gec-tez öz yerini tapdığının təsdiqi oldu. Şərəf tariximizə qızıl hərflərlə yazılan bu qələbənin özəllikləri çoxdur: müqəddəs ata vəsiyyətinə əməl olunması, silahlı qüvvələrimizin əyilməzliyinin, xalqın məğlubiyyətlə barışmazlığının zirvə nümayişi! Əsgərlərimiz ulu Xudafərini alıb cənub sərhədlərimizi bütövləşdirdilər, yalçın qayalara dırmaşıb alınmaz qala olan Şuşaya sahibləndilər, Ağdam, Kəlbəcər və Laçın döyüşsüz geri qaytarıldı. Bu gün dünya istəsə də, istəməsə də hünərimizi etiraf edir.

Artıq xalqımız haqlı olaraq özünün milli qürur dövrünü yaşayır. Başımızı dik tutub gəzirik. Üzümüz gülür. Ordumuzun vətənpərvər, mərd oğulları cəbhədə bir-birinin ardınca möhtəşəm uğurlar əldə etdilər, düşmənlə üz-üzə gələrək onun bağrını yardılar, belini qırdılar. Döyüş şücaəti, qətiyyəti göstərərək, illərdən bəri qaysaq tutmayan yaramızı sağaltdılar. Hər bir vətəndaşımızın öz rəhbərinə, silahlı qüvvələrinə güvənci, qələbəyə əminlik hissi, nəhayət, noyabrın 10-da atəşkəs haqqında üçtərəfli birgə bəyanatın – faktiki olaraq Ermənistan üçün biabırçı kapitulyasiya aktının imzalanması ilə nəticələndi. Hamımız bu qələbəyə varlığımız qədər inanırdıq. Çünki, Allah ruhumuzun pərvərişi üçün lütfünü əsirgəmədi. Çünki İlham Əliyev kimi Prezidentimiz, Ali Baş Komandanımız var. Çünki qəhrəman ordumuz məhz haqq savaşına qalxmışdı.

Vətən müharibəsi günlərində dilində, duyğu və düşüncələrində "Ali Baş Komandanla – İrəli!" şüarı ilə xalqımız Prezident İlham Əliyevi daim alqışlayır, onun titanik fəaliyyətini bəyənir, dəstəkləyir. Məhz dövlət başçımızın böyük qətiyyəti və öz xalqına, ordusuna tükənməz inamı sayəsində "Qarabağ Azərbaycandır!" nidası paşinyanların başında şimşək kimi çaxdı, əməli olaraq zamanımızın əbədi gerçəyinə çevrildi.

Dövlətimizin başçısı qələbəmizi canları bahasına gerçəkləşdirən ölməz şəhidlərimizin xatirəsinə daim dərin ehtiramını bildirir, onların Vətən naminə göstərdikləri misilsiz xidmətləri yüksək qiymətləndirir. Elə Şuşa işğaldan azad olunan gün – noyabrın 8-də hərbi libasda Şəhidlər xiyabanına gələn cənab İlham Əliyev bir daha şəhidlərimizə özünün ali dəyərini verdi: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada – Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Böyük qələbənin ertəsi günü– noyabrın 11-də isə cənab İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə ilk olaraq döyüşlər zamanı yaralanan və tibbi mərkəzdə müalicə alan əsgərlərimizin görüşünə getdi, şücaətlərinə görə onlara minnətdarlığını bildirdi, tezliklə sağalmaları üçün lazımi köməklik göstərəcəyini söylədi. Bu işdə birinci xanım Mehriban Əliyevanın şəxsi təşəbbüsünü, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun qayğısını diqqətə çatdırdı və sonda igid Vətən oğulları ilə xatirə şəkilləri çəkdirdi.

Göründüyü kimi, Prezidentimiz, Ali Baş Komandanımız İkinci Vətən müharibəsində iştirak edən hər bir əsgəri öz balası sayır, onların hamısının hərtərəfli qayğısına qalır. Yaralıların ən müasir üsullarla tibbi müalicə alması, ən modern protez və digər köməkçi vasitələrlə təchizatı təmin edilir.

Torpaqlarımız uğrunda şəhid olan döyüşçülərimizin ailələrinin, valideynlərinin, həmçinin də qazilərimizin problemləri daim dövlətin diqqət mərkəzindədir. Onların müavinətləri, pensiyaları, məişət problemlərinin həlli üzrə konkret addımlar atılır.

Nə xoş ki, indi biz artıq bütöv Azərbaycanın vətəndaşlarıyıq. Yüz minlərlə məcburi köçkün ailəsinin üstündən "qaçqın, məcburi köçkün" statusu götürüldü və indi onlar bərpa olunan doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər. İşğaldan azad olunmuş torpaqlarımızın minalardan təmizlənməsi, yaşayış üçün bütün infrastrukturların yaradılmasına güclü start verilib. Şair necə də dəqiq deyib: "Ömür rövnəq tapır könül güləndə; torpağın qədrini insan biləndə".

...Tariximizin şöhrətli səhifələrindən biri 1918-ci il iyun ayının 27-30-da Azərbaycanda başlanan döyüşlərdə bolşevik-daşnak qüvvələrinin darmadağın edilməsi və Qafqaz İslam ordusunun Bakı şəhərinə tərəf hərəkətə keçməsi olub. Qafqaz İslam Ordusu 1918-ci ilin sentyabr ayının 15-də Bakını tutdu və Azərbaycan Demokratik Respublikası hökumətinin paytaxta köçməsi üçün şərait yaratdı. Beləcə Bakı daşnaklardan, eserlərdən və ingilislərdən təmizləndi, şəhər Azərbaycan Demokratik Respublikasının rəsmi paytaxtına çevrildi. Azərbaycan təhlükədən xilas edildi, bütün ölkəyə nəzarət hökumətin sərəncamına keçdi. Bu günsə ölkənin beyin mərkəzi olan paytaxt Bakıdan müzəffər Ali Baş Komandanın verdiyi əmrlərlə, zəruri qərarlarla doğma Qarabağımızın işğaldan azad olunması reallaşdı. Prinsipial və qətiyyətli rəhbər, müzəffər ordu və əyilməz xalq birliyi sayəsində 30 ildən bəri həsrətində olduğumuz qələbə salnaməmiz yazıldı. Həmrəylik, qarşılıqlı dəstək, birlik, inam qanadları milləti zirvələrə qanadlandırdı. Üçrəngli bayrağımız layiq olduğu ucalıqlara yüksəldi.

Milli Ordumuz döyüş meydanında zəfər yürüşünü davam etdirdiyi günlərdə cənab İlham Əliyev beynəlxalq mediaya, xarici telekanallara müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri, ən etibarlı mənbə olaraq, məhz Azərbaycanın dövlət başçısından əldə etdi. Ölkəmiz işğalçıların və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi", – deyən möhtərəm Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olundu. Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı və Azərbaycan hər bir platformada öz qüdrətini göstərdi.

Son illər ərzində ölkəmizdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən çoxşaxəli islahatlar, möhkəm əsaslara malik xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyədə qurulması və həmrəyliyin təmin olunması, Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və bu kimi əhəmiyyətli nailiyyətlər tarixi qələbəmizi şərtləndirən mühüm məsələlər sırasındadır.

Vətən müharibəsindəki misilsiz qələbə Azərbaycan xalqının, onun liderinin, qəhrəman ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Qətiyyətli lider, müzəffər ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***